**AZƏRBAYCAN RESPUBLİKASININ RƏQƏMSAL İNKİŞAF VƏ NƏQLİYYAT NAZİRLİYİNİN KOLLEGİYASI**

**Q Ə R A R**

**№ 3-27/3-7-17/2023**

**Bakı şəhəri** **14 dekabr 2023-cü il**

**"Poçt-maliyyə xidmətləri" Avtomatlaşdırılmış Korporativ İnformasiya Sisteminin çıxarışlarının uçotu Qaydalarının təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi Kollegiyasının 2013-cü il 4 fevral tarixli 3 nömrəli Qərarı"nda dəyişiklik edilməsi barədə**

Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 yanvar tarixli 1785 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi haqqında Əsasnamə"nin 3.0.53-cü yarımbəndinə uyğun olaraq, həmin Əsasnamənin 5.11-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin Kollegiyası

**qərara alır:**

1. Azərbaycan Respublikası Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi Kollegiyasının 2013-cü il 4 fevral tarixli 3 nömrəli Qərarı ilə təsdiq edilmiş "Poçt-maliyyə xidmətləri" Avtomatlaşdırılmış Korporativ İnformasiya Sisteminin çıxarışlarının uçotu Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

1.1. 2.5-ci bəndində və 3.1.10-cu yarımbəndində "Tranzaksiya" sözü "Ödəniş əməliyyatını eyniləşdirməyə imkan verən istinad" sözləri ilə əvəz edilsin;

1.2. 3.1.4-cü yarımbənddən "unikal" sözü çıxarılsın;

1.3. 3.1.11-ci yarımbənddə "Tranzaksiyanın" sözü "Əməliyyatın" sözü ilə əvəz edilsin;

1.4. 4.2-ci bənd ləğv edilsin;

1.5. 5.3-cü bənddə "istənilən vaxt" sözləri "5 il ərzində" sözləri ilə əvəz edilsin.

2. Hüquq şöbəsinə tapşırılsın ki, bu Qərarın Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi üçün 3 (üç) gün müddətində Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə təqdim edilməsini təmin etsin.

3. Bu Qərar Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinin elektron variantında dərc edildiyi gündən qüvvəyə minir.

**Kollegiyanın sədri,**
**rəqəmsal inkişaf və nəqliyyat naziri** **Rəşad Nəbiyev**